**~~Keçmiş SSR Ali Məhkəməsinin Plenumunun Qərarları haqqında~~**

**~~Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 may 1993-cü il tarixli 4 saylı~~**

**~~QƏRARI~~**

~~SSRİ Ali Məhkəməsinin ləğvi ilə əlaqədar Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumu~~

**~~Qərara alır:~~**

~~1. Keçid dövrü ərzində məhkəmələr insan hüquqları haqqında beynəlxalq hüquqi aktlara, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına, habelə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlarına zidd deyilsə, SSR Ali Məhkəməsi Plenumunun qərarlarında verilən göstərişləri rəhbər tutmalıdırlar.~~

~~2. Keçmiş SSRİ Ali Məhkəməsi Plenumunun qərarları 1 yanvar 1992-ci ildən Azərbaycan Respublikası ərazisində hüquqi qüvvəsini saxlayır.~~

~~Azərbaycan Respublikası~~

~~Ali Məhkəməsinin sədri T.Z. Kərimli~~

~~Plenumun katibi,~~

~~Ali Məhkəmənin üzvü V.Q. Həşimov~~